TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

## SOSİAL, MƏDƏNİ VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSIYASI

## ONUNCU İCLAS

**2 mart 2023-cü il, Bişkek**

## HESABAT MƏRUZƏSİ

### “Keyfiyyətli təhsil üzrə BMT-nin Dayanıqlı İnkişaf Məqsədinə nail olunması üçün post-pandemiya şəraitində transsərhəd təhsilin inkişafı istiqamətində TÜRKPA-nın üzv dövlətləri arasında əməkdaşlıq”

TÜRKPA-nın Qırğız Respublikasının Çolpon-Ata şəhərində keçirilən 11-ci Plenar İclasında qəbul edilmiş Katibliyin 2023-cü il üçün Fəaliyyət Planına uyğun olaraq Komissiyanın 10-cu iclasının gündəliyinin əsas mövzusu kimi “Keyfiyyətli təhsil üzrə BMT-nin Dayanıqlı İnkişaf Məqsədinə nail olunması üçün post-pandemiya şəraitində transsərhəd təhsilin inkişafı istiqamətində TÜRKPA-nın üzv dövlətləri arasında əməkdaşlıq” mövzusunun müzakirəsi qərara alınmışdır.

TÜRKPA-nın bütün üzv dövlətləri Birləşmiş Millətlər Təşkilatının və onun Proqramlarının tamhüquqlu üzvləridir. Hər bir üzv dövlətin uzunmüddətli inkişaf planlarına, xüsusən də ali təhsil kontekstində təhsilin inkişafı, əlçatanlığı və təkmilləşdirilməsi ilə bağlı müəyyən məqsədlər daxildir.

Hazırda dünyada 235 milyona yaxın tələbə ali təhsil alır. 6 milyona yaxın tələbə xaricdə təhsil alır və 2025-ci ilə qədər onların sayının 8 milyona çatacağı təxmin edilir. YUNESKO-nun araşdırmalarına görə dünyanın müxtəlif yerlərində ali təhsilin əlçatanlığı bərabər deyil: ən az tələbə Afrika ölkələrinin payına düşür: Sahara səhrasının cənub hissələri –9%; Mərkəzi və Cənubi Asiya – 25%; Şərqi, Cənub-Şərqi Asiya, Latın Amerikası və Karib hövzəsi ölkələri – 40%-50%.

BMT-nin Əhali Fondunun məlumatlarına görə 2022-ci ilin sonunda dünyada əhalinin ümumi sayı 8 milyard nəfər olmuşdur, 15-64 yaş arası əhali isə ümumi əhalinin 65 faizini təşkil edir. Dünya əhalisinin bu 65%-i arasında tələbələrin payı cəmi 4,5%-dir. 2020-ci ildə Covid-19 pandemiyası təhsil müəssisələrinin müvəqqəti bağlanması ilə təhsilin bütün səviyyələrində ümumi tələbələrin 91%-nə, təxminən 1,6 milyard insana təsir edib. Və bu hadisə təkcə gündəlik həyatda deyil, təhsildə də yeni yanaşmaları yenidən düşünmək məcburiyyəti yaradıb.

Gündəliyin 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədi-4 inklüziv və bərabər keyfiyyətli təhsilin dünya miqyasında həyata keçirilməsini və hamı üçün ömürboyu təhsil imkanlarının təşviqini nəzərdə tutur. Bu layihənin həyata keçirilməsi həm milli təhsil sisteminin inkişafını, həm də DİM-4-ün tələblərinə cavab vermək üçün transsərhəd təhsilin potensialının genişləndirilməsini nəzərdə tutur.

## AZƏRBAYCAN

Azərbaycanda ali təhsil alan tələbələrin orta sayı ildən-ilə artır. 2022/2023-cü tədris ilində tələbələrin sayı təxminən 216 min nəfərdən çox olub ki, bu da ölkə əhalisinin demək olar 2.1%-ni təşkil edir. Azərbaycanda ümumilikdə 51 universitet və onların bir neçə filialı ölkənin şəhər və rayonlarında fəaliyyət göstərir.

BMTİP-in İnsan İnkişafı İndeksi (İİİ) üzrə məlumatlarına əsasən, Azərbaycan 0,745 indekslə yüksək hesab edilən 191 ölkə arasında 91-ci yerdə qərarlaşıb və bu göstəricilər ildən-ilə yüksəlir. İİİ-nin yüksək dərəcəsi həm də ölkədə təhsil səviyyəsinin artmasını nəzərdə tutur ki, bu da Azərbaycanda həyat səviyyəsinin nisbətən yüksəlməsinə təsir göstərir.

Azərbaycan TÜRKPA üzv dövlətləri ilə ali təhsil sahəsində fəal əməkdaşlıq edir. Əməkdaşlığın çox hissəsi dövlət orqanları ilə universitetlər arasında ikitərəfli müqavilələr əsasında tələbə mübadiləsinə əsaslanır.

Azərbaycan və Qazaxıstanın Təhsil nazirlikləri arasında imzalanmış Razılaşmaya əsasən, hər il beş nəfər olmaqla bakalavr və doktorantura üzrə tələbə mübadiləsi nəzərdə tutulur. 2022/2023-ci tədris ili ərzində ümumilikdə 87 Qazaxıstan vətəndaşı Azərbaycanın ali məktəblərində təhsil alıb. Bir azərbaycanlı tələbə Əl-Farabi adına Qazaxıstan Milli Universitetində təhsil almaq üçün icazə əldə edib.

2021-ci ilin may ayında Azərbaycanın Təhsilin Keyfiyyətinin Təminatı Agentliyi ilə Qazaxıstanın Təhsildə Keyfiyyətin Təminatı üzrə Müstəqil Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb. Bu cür əməkdaşlıq dövlətlərin təhsil standartları üzrə birgə qiymətləndirmə proqramları üçün platforma yaradır.

Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayevin Qazaxıstana səfəri və 2022-ci ilin iyun ayında onun həmkarı elm və eli təhsil naziri Nurbek Sayasat ilə görüşü də Azərbaycanın transsərhəd təhsil sahəsində əməkdaşlıq istiqamətində səylərini gücləndirmişdir.

Azərbaycanın tələbə mübadiləsi proqramı Qırğızıstanla da həyata keçirilir. 2022/2023-cü tədris ilində Qırğızıstanın 15 vətəndaşı Azərbaycanda bakalavr və doktorantura pillələri üzrə təhsil almış, onlardan 2-si təhsil qrantı əldə etmişdir.

Azərbaycan təhsilində Türkiyə Respublikası ilə geniş mübadilə proqramı həyata keçirilir. Təkcə 2022/2023-ci illərdə Azərbaycanda 3036 Türkiyə vətəndaşı təhsil alıb. “Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı” çərçivəsində 43 nəfər Azərbaycan vətəndaşı Türkiyədə fəlsəfə doktoru təhsili alır. “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” 24 tələbəyə Türkiyənin 13 ali təhsil müəssisəsində təhsil almaq imkanı yaradıb.

Azərbaycan və Türkiyə arasında təhsil sahəsində əməkdaşlıq ikitərəfli səfərlər və Türkiyə Respublikası Ali Təhsil Şurasının 2022-ci ilin iyun ayında Azərbaycan Respublikasına səfəri zamanı Azərbaycan və Türkiyə universitetlərinin 60 rektorunun görüşü kimi hökumət səviyyəsində müxtəlif tədbirlərdə iştirakdan ibarətdir.

Qeyd olunan tədbirlərlə yanaşı, Azərbaycan və Türkiyə Azərbaycanda iki peşə təhsili müəssisəsinin yenidən qurulması və yeni Azərbaycan-Türkiyə Universitetinin yaradılmasında əməkdaşlıq edirlər.

Azərbaycan Respublikasının 2021-ci il üçün gündəliyinin 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri haqqında” Fərman imzalayıb. Bu cari strateji sənədə 2022-ci il noyabrın 5-də dünyanın 46 dövlətindən geniş spektrli alim və ekspertlərin iştirakı ilə Bakıda

keçirilən "Təhsildə yeni çağırışlar" III Beynəlxalq Forumu zamanı müzakirə olunan təhsil məsələlərinə həsr olunmuş bölmə daxil edilib.

## QAZAXISTAN

Qazaxıstanda ali təhsil alan tələbələrin sayı 575,5 min nəfərdir ki, bu da ölkə əhalisinin 3%-ni təşkil edir. Rəsmi məlumatlara görə, Qazaxıstanda 116 ali təhsil müəssisəsi var və onların 1/4-i dövlət, 72%-i özəl, qalanları isə xarici ali təhsil müəssisələridir.

BMTİP-in İnsan İnkişafı İndeksi (İİİ) üzrə məlumatlarına əsasən, Qazaxıstan 0,811 indekslə 191 ölkə arasında 56-cı yerdə qərarlaşıb ki, bu da çox yüksək səviyyə hesab olunur. Əvvəlki illə müqayisədə İİİ göstəriciləri bir qədər azalsa da, qlobal nisbətdə ümumi mövqe 3 pillə qədər artıb. Qazaxıstanda mütərəqqi sosial-iqtisadi inkişaf və İİİ-nin artması 5-6 il ərzində ali təhsilli tələbələrin sayının 1 milyon nəfərə çatmasını nəzərdə tutur.

Qazaxıstanda yuxarıda qeyd olunan tələbələrin hamısının 3,9%-i əcnəbi tələbələrdir: 1,9%-i MDB dövlətlərindən, daha çox Özbəkistandan (1,4%); 2%-i uzaq xaricdən, əsasən Hindistandan (1,3%)dır.

Əcnəbi tələbələrin Qazaxıstanda təhsil almaq marağı ölkədə ali təhsilin müasirləşməsinə və beynəlmiləlləşməsinə təkan vermişdir. Bunlardan biri də təhsilin keyfiyyətini gücləndirmək və Qazaxıstanın iqtisadi inkişafına töhfə vermək məqsədi daşıyan "2011-2020-ci illər üçün təhsilin inkişafına dair" Dövlət Proqramıdır. Ali təhsilin beynəlmiləlləşməsi 2015-ci ildə qəbul edilmiş "100 konkret addım" Milli Planında da öz əksini tapıb və orta məktəblərdə və universitetlərdə mərhələli şəkildə ingilis dilinə keçid gözlənilir. Planın məqsədi təhsilli insanların rəqabət qabiliyyətinin və təhsil sektorunun ixrac potensialının artırılmasıdır. Yuxarıda qeyd olunan proqramın davamı 2020-2025-ci illər üçün növbəti Dövlət Proqramı oldu ki, bu da iki məqsədə nail olmaq üçün hazırlanmışdır: Qazaxıstan təhsilinin qlobal rəqabət qabiliyyətinin artırılması və elmin ölkənin sosial-iqtisadi inkişafına töhfəsinin artırılması. Həyata keçirilməli olan vəzifələr keyfiyyətli təhsil, kənd və şəhər təhsil səviyyələri arasında fərqin azaldılması, təhsil prosesinin ardıcıllığı da daxil olmaqla bir çox DİM-lərə cavab verir.

Təhsildə aparılan mütərəqqi islahatlar Qazaxıstanı 12 illik məktəb təhsilinə keçməyə, 21-ci əsrdə tələb olunan bacarıqları inkişaf etdirməyə, hamının bütün mərhələlərdə keyfiyyətli və bahalı olmayan təhsilə bərabər çıxışını təmin etməyə gətirib çıxarmışdır.

2010-cu ildə Qazaxıstan Boloniya Bəyannaməsinə qoşuldu və Boloniya prosesinin 47-ci ölkəsi oldu. Bu fakt Qazaxıstanda Yəsəvi adına Qazax-Türk Universiteti, Qazax-Alman Universiteti, Qazax-Britaniya Texniki Universiteti, Qazaxıstan-Amerika Azad Universiteti və s. kimi beynəlxalq və birgə universitetlərin işini asanlaşdırır. Qazaxıstanın təhsil təşkilatları TASIS və Tempus kimi akademik proqramlar vasitəsilə xarici tərəfdaşlarla əməkdaşlıq edir.

Qanunvericilik səviyyəsində təhsil sahəsində beynəlxalq əməkdaşlıq Qazaxıstan Respublikasının "Təhsil haqqında" Qanunu (2007) və digər normativ hüquqi aktlarla təsbit edilmişdir. Qazaxıstan təhsilinin beynəlmiləlləşdirilməsi təkcə qabaqcıl təhsil sistemlərinə uyğunlaşdırılmaya deyil, həm də xarici tələbələrin Qazaxıstanda təhsil almağa cəlb edilməsinə və yaxın gələcəkdə onların sayının 10% artırılmasına yönəlib.

## QIRĞIZISTAN

Qırğızıstanda ali peşə təhsili alan tələbələrin orta sayı 231 min nəfərə yaxındır ki, bu da ölkə əhalisinin 3,3%-ni təşkil edir. Statistik məlumatlara əsasən Qırğızıstanda 60 ali təhsil müəssisəsi var və onların 1/3-i özəldir.

BMTİP-in məlumatına görə İnsan İnkişafı İndeksi (İİİ) üzrə Qırğızıstan 0,692 indekslə orta səviyyə hesab edilən 191 ölkə arasında 118-ci yerdə qərarlaşıb. Göstəricilər əvvəlki illərlə müqayisədə uyğunlaşdırılmışdır. Artan göstəricilər ölkənin ümumi sosial-iqtisadi və təhsil sahəsində müsbət dinamikasını əks etdirir.

Qırğızıstanın təhsil sistemi də beynəlmiləlləşmə prosesində iştirak edir. Sözügedən tələbələrin 35% - i əcnəbi tələbələrdir. Onların əksəriyyəti Orta Asiya ölkələrindəndir. Qırğızıstanın təhsil müəssisələri Mevlana, DAAD, Erasmus+, Fulbright proqramları çərçivəsində sıx əməkdaşlıq edir. Qırğızıstanın təhsilin beynəlmiləlləşməsində iştirakı həm tələbə, həm akademik hərəkətliliyi, həm də Boloniya prosesi çərçivəsində proqram hərəkətliliyini əhatə edir.

Qırğızıstan və Azərbaycan Dövlətlərarası Şurasının 2022-ci ilin oktyabr ayında keçirilən 1-ci iclasında iki dövlətin prezidenti müəyyən bir proqramın hazırlanması ilə təhsil sahəsində əməkdaşlıq potensialının artırılmasının vacibliyini qeyd etmişdir.

Qırğızıstan və Qazaxıstan Orta Asiya regionunun ən yaxın qonşuları kimi təhsil sahəsində əməkdaşlığa dair bir çox ikitərəfli müqavilələr və memorandumlar imzalayıb. Bu yaxınlarda iki dövlətin hökumətləri arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2006-cı il müqaviləsinə dəyişiklik edilməsi barədə Protokol imzalanmışdır. Bu sənəd Qazaxıstan Prezidenti K. J. Tokayevin 2022-ci ilin mayında Qırğızıstana rəsmi səfəri zamanı imzalanıb. Əməkdaşlığın tərəqqisi Qazaxıstan universitetlərinin Qırğız Respublikasında filiallarının açılmasının mümkünlüyünü nəzərdə tutur.

Qırğızıstan və Türkiyə arasında təhsil sahəsində əməkdaşlıq universitetlər arasında ikitərəfli əməkdaşlıqdan tutmuş hökumətlərarası əlaqələrərə qədər bütün səviyyələri əhatə edir. 2021/2022 - ci tədris ilində Qırğızıstan universitetlərində 1048 Türkiyə vətəndaşı, onlardan 857-si isə iki ölkə arasında təhsil körpüsünə çevrilən Qırğızıstan-Türkiyə "Manas" universitetində təhsil almağa başlamışdır. Türkiyədə təqaüd və özünü təmin edən əsaslarla təhsil alan 1649 Qırğızıstan vətəndaşı vardır.

DİM-lərin prioritetləri ilə yanaşı, Qırğızıstan özünün Milli İnkişaf Strategiyası-2040-a bütün səviyyələrdə təhsilin təkmilləşdirilməsinə prioritet diqqəti daxil etmiş və Qırğız Respublikasının Təhsil Nazirliyi tərəfindən “2021-2040-cı illər üçün Təhsilin İnkişafı Strategiyası” sənədi hazırlanmışdır. Sənəddə öz əksini tapmış əsas məqsədlər keyfiyyətli təhsil, onun əlçatanlığı və müasirliyi ilə yanaşı milli mədəni dəyərlərin qorunub saxlanılması ilə bağlı Gündəlik 2030 Məqsədlərinə uyğundur.

## TÜRKİYƏ

2021-ci ilə qədər Türkiyədə ali təhsil alan tələbələrin sayı 8,4 milyon nəfərə çatıb. Bu rəqəm son 18 ildə 1,6 mln. olmuşdur. Bu gün ali təhsil alan tələbələrin sayı ölkə əhalisinin demək olar ki, 10%-ni təşkil edir. Türkiyədə 209 universitet var və onlardan 129-u dövlət universitetidir.

BMTİP-in məlumatına görə, İnsan İnkişafı İndeksi (İİİ) üzrə Türkiyə 0,838 indekslə 191 ölkə arasında 48-ci yerdədir ki, bu da çox yüksək səviyyə hesab olunur. Əvvəlki tədqiqat ili ilə müqayisədə həm İİİ göstəricisi, həm də dərəcə mövqeyi yüksəlmişdir. Yüksək göstəricilər dövlətin təhsil sisteminə töhfəsini həyata keçirir, ali təhsilə büdcədən ayrılan vəsait 2,5 milyard lirədən 36 milyard lirəyə yüksəlmişdir.

Dünyanın hər yerindən 200 minə yaxın tələbə Türkiyədə ali təhsil alır. Türkiyənin ali təhsil müəssisələrinin bütün tələbələri arasında qadın

tələbələrin payı 49% - ə çatıb. Türkiyədə DİM 4-lə yanaşı, qadın və kişi bərabərliyi, qadınların gücləndirilməsi və onların potensialı, o cümlədən təhsil sahəsində qadın və kişi bərabərliyi ilə bağlı DİM 5 də həyata keçirilir.

Türkiyə ilə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlıq çoxsaylı ikitərəfli saziş və memorandumlara əsaslanır: Təhsil nazirlikləri arasında qarşılıqlı anlaşma haqqında Memorandum (28.02.1992); Təhsil, ekspert yardımı, texniki və elmi əməkdaşlıq haqqında Dövlətlərarası Saziş (03.05.1992); Elmi, texniki, sosial, mədəni və iqtisadi sahələrdə hərtərəfli əməkdaşlıq haqqında Dövlətlərarası Saziş (09.02.1994), Təhsil sahəsində Əməkdaşlıq haqqında Hökumətlərarası Saziş (31.10.2017), Peşə təhsili sahəsində əməkdaşlıq haqqında Protokol (19.02.2021), Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Xaricdə yaşayan və Əqrəba İcmaları Baş İdarəsi arasında Niyyət Məktubu (23.02.2021), Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Maarif Vəqfi arasında Protokol (20.05.2021), Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) və Türkiyə Respublikasının Ali Təhsildə Keyfiyyət Təminatı Şurası (YÖKAK) arasında Anlaşma Memorandumu (26.07.2021) kimi sənədlər dövlətlər arasında təhsil sahəsində daha da keyfiyyətli inkişafın başlanğıcını qoyur. Hər iki ölkənin Təhsil nazirlikləri rəhbərlərinin ikitərəfli görüşləri, qarşılıqlı səfərləri, təcrübə mübadiləsi səfərləri əməkdaşlığın əməli işini əks etdirir. Təhsil sahəsində əməkdaşlığın nəticələri arasında Azərbaycanın təhsil müəssisələrində “Ortaq türk tarixi” fənninin tədrisini, “Ortaq Türk ədəbiyyatı” və “Türk dünyasının coğrafiyası” dərslikləri üzərində işlərin aparılmasını qeyd etmək olar.

Peşə-texniki təhsil üzrə təhsil layihəsi dövlətlər arasında TİKA-nın dəstəyi ilə həyata keçirilir. Artıq Azərbaycanda bir neçə ortaq Türkiyə-Azərbaycan liseyləri və əsasən Türkiyə vətəndaşları və yerli tələbələr üçün nəzərdə tutulmuş məktəblər fəaliyyət göstərir. Son vaxtlar iki tərəf iqamətgahı Azərbaycanda olmaqla birgə Türkiyə-Azərbaycan Universitetinin yaradılması üzərində işləyir. Universitetdə Türkiyənin aparıcı universitetlərində mövcud və Azərbaycanda tələbatı olan ixtisaslar tədris olunacaq.

Türkiyənin Qazaxıstanla təhsil sahəsində əməkdaşlığı müxtəlif səviyyələrdə bir neçə ikitərəfli razılaşmalara əsaslanır. Bunlardan birincisi iki dövlətin prezidentləri tərəfindən imzalanmış Anlaşma Memorandumudur (25.09.1991). Bu sənəd əməkdaşlığın daha da genişləndirilməsi üçün əsas yaradır: Təhsil, elm, mədəniyyət və idman sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Saziş (01.05.1992); Yəsəvi adına Türk-Qazax Universitetinin yaradılması haqqında müqavilə (31.10.1992); Təhsil nazirlikləri arasında təhsil və elm

sahəsində əməkdaşlıq haqqında Protokol (04.03.1997); Təhsil nazirlikləri arasında peşə-texniki təhsil haqqında Saziş (05.02.2007); Təhsil sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Saziş (10.05.2022) və s. Bu sənədlər Qazaxıstanda türk orta məktəb və liseylərinin açılması və fəaliyyət göstərməsi, o cümlədən Yəsəvi Universitetinin fəaliyyət göstərməsi üçün platforma yaratmışdır. Bundan əlavə, Qazaxıstanın məktəb və universitetlərində türk dilində çoxsaylı mədəniyyət kursları və dil kursları açılır. Transsərhəd təhsil sahəsində əməkdaşlıq həm də onun çərçivəsində peşəkar-texniki təhsil layihəsi və mübadilə proqramları vasitəsilə həyata keçirilir. 2012-2017-ci illər arasında Qazaxıstandan 363 təlimçi İstanbulda, Türkiyədən isə 52 müəllim Qazaxıstanda olmuşdur.

Türkiyə ilə Qırğızıstan arasında ikitərəfli razılaşmalar, memorandumlar və protokollar əsasında əməkdaşlıq, Təhsil, mədəniyyət və elm sahəsində əməkdaşlıq haqqında hökumətlərarası saziş (03.03.1992) dövlətlər arasında təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinə və dərinləşməsinə təkan vermişdir. Əməkdaşlıq Anadolu türk-qırğız Liseyi və Anadolu qızlar türk-qırğız professional Liseyinin, Qırğızıstan-Türkiyə "Manas" Universitetinin yaradılması Qırğızıstan Universitetinin Türk Təhsil Mərkəzində Türkiyə vətəndaşları üçün iş yerlərinin təmin edilməsi ilə həyata keçirilir. Təhsil əməkdaşlığı üzrə işlər də çoxşaxəli münasibətlər və birgə iqtisadi münasibətlər çərçivəsində aparılır

Türkiyə üçün təhsilin beynəlmiləlləşməsi təkcə beynəlxalq tələbələr üçün ev sahibliyi etmək və xaricdə türk məktəbləri və universitetləri açmaq deyil, həm də xaricdə türk tələbələrin ali təhsil almasıdır. Türkiyə Milli Təhsil Nazirliyinin məlumatına görə, 14 ölkədə 145 minə yaxın türk tələbəsi təhsil alır. Populyar ölkələr ənənəvi olaraq Avropa və ABŞ ölkələridir.

## NƏTİCƏ

TÜRKPA üzv dövlətləri təhsilin beynəlmiləlləşmə prosesinin tamhüquqlu iştirakçılarıdır. Dövlət və universitet proqramları həm ölkədə təhsilin keyfiyyətinin yüksəldilməsinə, həm də beynəlxalq səviyyədə təbliğinə yönəldilmişdir.

Təhsilin beynəlmiləlləşməsi Universitet filiallarının açılması, qarışıq ikili diplom proqramı ilə ortaq universitetlərin yaradılması, təhsil hərəkətliliyi Proqramına uyğun tələbə və müəllim mübadiləsi daxil olmaqla müxtəlif yollarla həyata keçirilir.

TÜRKPA üzv dövlətləri arasında sərhədlərarası təhsil yalnız ali təhsilin akademik və tələbə hərəkətliliyi ilə məhdudlaşmır. İbtidai və orta məktəblərdə təhsil almaq üçün də tətbiq olunur. Bu, əsasən Türkiyə tərəfindən yalnız Türkiyə vətəndaşları və etnik qrupların deyil, həm də yerli əhalinin təhsil ala biləcəyi TÜRKPA üzv dövlətlərində ibtidai və orta məktəblərin və təhsil mərkəzlərinin açılması yolu ilə həyata keçirilir. İbtidai, orta və ali məktəb səviyyəsində təhsil əməkdaşlığı şagirdlərin bir-biri ilə daha da inteqrasiyası və ünsiyyətində, təhsildə ümumi qavrayış və anlayışın inkişafında mühüm rol oynayır.

TÜRKPA üzv dövlətlərinin universitetləri ikitərəfli beynəlxalq münasibətlərdən əlavə, 41 universitetin (TDT-nin himayəsi altında əməkdaşlıq proqramı) iştirakı ilə Türk Universitetləri Birliyi (TURKUNİB) çərçivəsində də əməkdaşlıq edir.

Təhsilin sərhədlərdən kənarda təşviqi Bolonya prosesinə əsaslanan Avropa platformalarından istifadə etməklə həyata keçirilir. Azərbaycan, Qazaxıstan və Türkiyə müvafiq olaraq 2005, 1999 və 2001-ci illərdə Boloniya prosesinə qoşulub. Qırğızıstan Boloniya prosesinə tam qoşulmamış, lakin onun 15 ali təhsil təşkilatı 2002-2015-ci illər arasında universitetlərin böyük anlaşmasını imzalamış və bununla da Boloniya Konvensiyasına qoşulmuşdur.

TÜRKPA üzv dövlətlərinin əməkdaşlıq üçün ən azı iki beynəlxalq platforması var: Boloniya prosesi və 41 TURKUNİB Orhun prosesi Universiteti, hər ikisi də Avropa Kredit Köçürmə və yığım sistemindən istifadə edir. TÜRKPA üzv dövlətləri arasında təhsilin beynəlmiləlləşdirilməsinin ən yaxşı təcrübəsi, türk təhsil prosesinə inteqrasiyası ilə mövcud əməkdaşlıq sistemindən istifadə etməkdir.